AİDS, Vərəm və Malyariya ilə mübarizə üzrə QLOBAL FOND

LAYİHƏNİN ƏLAQƏLƏNDİRMƏ BÜROSU

HİV/AİDS, Vərəm və Malyariya ilə mübarizə Proqramı

WWW.GFAIDS.AZ
WWW.GFTB.AZ

**Bəşəriyyətin AİDS və Vərəmdən xilası hər birimizdən asılıdır!**

*İNFORMASİYA BÜLLETENİ* **№14, 05 May 2010-cu il**

**AİDS, Vərəm və Malyariya ilə mübarizə üzrə Qlobal Fondun əsas iş prinsipi ondan ibarətdir ki, o, HİV, Vərəm və Malyariya xəstəliklərinin müalicəsi və bu xəstəliklərin qarşısının alınmasına dəstək olur**

# Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun direktoru, professor Elcan Məmmədbəyovla müsahibə

***Alman mikrobioloqu Robert Koxun vərəm çöplərini kəşf etməsi bəyan olunan gün, yəni martın 24-ü Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) qərarı ilə 1993-cü ildən etibarən Ümumdünya vərəmlə mübarizə günü kimi qeyd olunur. O zaman vərəmi "milli fəlakət" elan edən ÜST DOTS strategiyasını bu xəstəliklə mübarizənin yeni strategiyası kimi tövsiyə edib.***

***Ümumdünya vərəmlə mübarizə günü ərəfəsində Səhiyyə Nazirliyinin ftiziatriya üzrə baş mütəxəssisi, Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun direktoru prof. Elcan Məmmədbəyovla ölkəmizdə bu xəstəliklə bağlı vəziyyət, həyata keçirilən vərəmlə mübarizə tədbirləri və s. barədə söhbət etdik.***

***1. Məlum olduğu kimi bu gün Azərbaycanda vərəm xəstəliyi böyük və çox aktual bir problemdir. Bu xəstəliyə qarşı mübarizə aparmaq üçün, Milli Vərəm Proqram tərəfindən hansı tədbirlər görülür?***



Cəmiyyətdə vərəm barədə aşağı məlumatlılıq səviyyəsi xəstəliyin gec aşkar olunmasına gətirib çıxarır. İnsanlar vərəm mütəxəssisinə xəstəliyin inkişaf mərhələsində müraciət edir ki, bu da onların müvəffəqiyyətli müalicə şanslarını aşağı salır. Gecikmiş aşkarlanma isə xəstəliyin cəmiyyətdə yayılmasına səbəb olunur. Bu halları aradan qaldırmaq üçün Azərbaycan Səhiyyə Kommunikasiya Assosiasiyası (ASKA), Total E&P Azərbaycan V.P. tərəfindən maliyyələşdirilən "Azərbaycanda vərəmin səmərəli profilaktikası və müalicəsi üçün kommunikasiyası materiallarının hazırlanması" layihəsi işlənib. Layihəyə əsasən ASKA əhaliyə vərəm simptomları, yoluxma halları, tibbi məsləhət üçün müraciət etməsi və müalicənin kəsilməsi barədə, vərəmi gecikmədən, yəni erkən

diaqnostika məqsədilə 2 reklam çarxı və 1 təlim filmi çəkilməsi nəzərdə tutulur. Bundan əlavə, HİV/AİDS, Vərəm və Malyariya ilə Mübarizə üzrə Qlobal Fondun (GF) maliyyə dəstəyi ilə, İlkin Səhiyyə Xidmətində çalışan həkim və tibb bacıları arasında vərəmə dair Bilik, Münasibət və Təcrübə mövzusunda sorğu aparılıb. Bu sorğu, vərəm barədə məlumatı artırmaq, xəstələrə müvafiq münasibət göstərmək və vərəmin idarə olunması məqsədi ilə aparılmışdır. Bundan əlavə vərəmə dair müxtəlif maarifləndirici materiallar da (kalendarlar, broşurlar, posterlar və s.) çap edilmişdir.

***2. Elcan m. zəhmət olmasa Dərmanlara Davamlı Vərəm forması haqqında daha ətraflı məlumat verəsiniz və onun qarşısını almaq üçün hansı addımlar atılır?***

Dərmana Davamlı Vərəm (DDV) forması I sıra vərəm əleyhinə dərman preparatlarına davamlılıq yarandığı zaman müşahidə olunur. Bu davamlılıq müalicə prosesində yarana bilər. Buna səbəb həkim tərəfindən düzgün aparılmayan müalicə və ya xəstənin dərmanlarını mütəmadi olaraq qəbul etməməsidir. Dərmana davamlı vərəm formasının qarşısını almaq üçün xəstəliyi erkən aşkarlamaq, xəstəni müalicəyə cəlb etmək və I sıra vərəm əleyhinə dərman preparatlarının müntəzəm qəbuluna nəzarət etmək lazımdır. Bununla əlaqədar ölkəmizdə HİV/AİDS, Vərəm və Malyariya ilə Mübarizə üzrə Qlobal Fondun (GF) maliyyə dəstəyi ilə DDV mübarizə layihəsi həyata keçirilir. Beləliklə, GF proqram çərçivəsində bu günədək artıq 90 pasiyent müalicəsinə cəld edilmişdir. Bundan əlavə, reaktiv və lazımi avadanlıqla təchiz edilmiş ikinci və üçüncü dərəcəli 5 bakterioloji laboratoriyalar qurulmuşdur. Masallı və Tər-Tər rayonlarında Vərəm dispanserləri yenidən bərpa olunub və rəqəmsal fluoqrafiya aparatı ilə təchiz edilmişdir. Zaqatalada, Naxçıvan Muxtar Respublikasında və Qubada yeni tipli laboratoriyaların tikilməsi başa çatdırılmaqdadır. Bir çox rayonlarda GF layihəsi çərçivəsində Vərəmə birbaşa müalicə nəzarəti otaqları (DOTS) qurulmuş, kultural müayinələrin cavablarını tezləşdirmək üçün iki BACTEK cihazı alınmışdır. İlkin Səhiyyə Xidmətində çalışan həkim və tibb bacıları üçün təkmilləşdirmə kursları mütəmadi olaraq keçirilir. Hal-hazirda, GF layihəsi çərçivəsində Ziğ qəsəbəsində yerləşən, DDV xəstələri müalicə etmək üçün 100 çarpayılıq 6 saylı Vərəm əleyhinə dispanserdə təmir-bərpa işləri yekunlaşmaq və tam təminat olmağı üzrədir.

***3. Ambulator müalicədə olan DDV vərəm xəstələrinə nəzarət mexanizmi mövcuddurmı?***

Ambulator müalicədə olan DDV vərəm xəstələrinin dərman qəbuluna DOT kabinetlərində çalışan tibb personalı nəzarət edir. Xəstələr II sıra vərəm əleyhinə dərman preparatlarını gündəlik olaraq tibb



personalının birbaşa nəzarəti altında alırlar. Bundan əlavə Milli Vərəm Proqramı çərçivəsində DOT koordinator mütəmadi olaraq kabinetlərdə müalicə alan xəstələrin dərmanlarının, ərzaqlarının və maddi təminatının verilməsinə nəzarət edir.

Həmçinin hər rüb mərkəzi və regional superviziyalar təşkil olunur ki, bu baxışlar zamanı mərkəzi və regional koordinatorlar DOT kabinetinin fəaliyyətini yoxlayırlar və aşkar olunan nöqsanlar aradan götürülür. Göstərilən fəaliyyətin bir çox məqamları GF layihəsinin tərkib hissəsidir.

***4. DOT kabinetlərdə işləyən tibb personalı üçün maddi stimulyasiya nəzərdə tutulurmu?***

Qlobal Fondun maliyyələşdirdiyi proqram çərçivəsində, həm DOT kabinetlərdə müalicə alan xəstələr gündəlik nəqliyyat xərci və ərzaq ilə (hər gün DOT kabinetinə gəlmək şərtilə) təmin olunur, həm də tibb personalına ərzaq və maddi təminat şəklində stimulyasiya nəzərdə tutulur.

***5. Öz işinizdə hansı problemlərlə rastlaşırsız?***

Problemlər çoxdur, və bu problemlərdən çəkinmək yox, onlardan çıxış yolları axtarıb tapmaq vacibdir və olduqca maraqlıdır.

**Milli İstinad Laboratoriyasının rəhbəri Rafiq Abüzərov**

Milli İstinad Laboratoriyasının (MİL) tikilməsinə 2007-ci ildə başlanılmışdır. Rəsmi açılışı isə 2009 il mayın 15-də baş tutmuşdur. Əvvəllər bizim respublikamızda texniki təhlükəsizlik qaydalarına riayət edən laboratoriya mövcud deyildi. Hal hazırda isə, MİL açıldıqdan sonra artıq biz dünya standartlarına uyğun dərmanlara həssaslıq testi keçiririk. Bundan əlavə, MİL-da ciddi nəzarət altında rənglər hazırlanır və respublikada olan vərəm müəssisələrinə paylanılır.

Həmçinin,respublikanın regionlarında əkmə laboratoriyalarının açılması planlaşdırılır. Naxçıvan MR-da isə əkmə və dərmanlara həssaslıq laboratoriyalarının açılması nəzərdə tutulur. Bu laboratoriyaların açılması bizim işimizi asanlaşdıracaq. Əkilmə prosesi regionlarda keçiriləcək və bizə artıq hazır kulturlar göndəriləcək. Hal hazırda isə, bizim həkimlər regional laboratoriyalara gedirlər və bütün rentgenoqrammalara baxıb dərmana davamlı vərəm xəstələrini seçib onların bəlğəmini əkilmək üçün MİL-na göndərirlər. Beləliklə hər gün bizə 35-40 analiz gəlir.




Təəssüf ki, bizim laboratoriya hələ ki sertifikat almayıb və biz hər xəstənin analizlərini paralel olaraq STİDT laboratoriyasına göndərməyə məcbur oluruq. Təbii ki, sertifikatı alandan sonra STİDT-nın yükü azalacaq və bütün mülki sektoru biz öz üzərimizə götürəcəyik.

Bundan əlavə qeyd eləmək lazımdır ki, hər rüb MİL tərəfindən verilən sifariş əsasında HİV/AİDS, Vərəm və Malyariya ilə Mübarizə üzrə Qlobal Fondun (QF) maliyyə dəstəyi ilə bütün lazım olan reaktivlər bizə öz vaxtında çatdırılır. Həmçinin, regionlarda yerləşən laboratoriyalara baş çəkməkdə, tibb personalı üçün treninqlər keçirməkdə QF mühüm bir rol oynayır.

Bu günə kimi, xəstələrin analizləri alınan andan tam nəticə əldə olunana kimi 2 aya



qədər vaxt tələb olunurdu. Hal hazırda isə, QF-un maliyyə dəstəyi ilə biz Bactek MGİT 960 aparatını əldə etmişik və həmin müddəti 7-12 günə kimi azaltmışıq. Yaxın gələcəkdə isə QF-un dəstəyi ilə, HAİN-PCR aparatının alınması da planlaşdırılır ki, onun vasitəsilə dərmanlara həssaslıq testini artıq 1-2 gün ərzində aparmaq mümkün olacaq. HAİN-PCR aparatı ilə işləmək üçün bizim laboratoriyanın işçiləri Almaniyada treninq keçiblər və bundan əlavə STİDT laboratoriyada bu aparat artıq işlədilir və ehtiyac olarsa məsləhət üçün oradakı mütəxəssislərə müraciət edə bilərik.

Bütün dünyada, habelə Azərbaycanda vərəmin geniş yayılmasına baxmayaraq, bu xəstəliklə mübarizə etmək üçün biz öz gücümüzü əsirgəməyəcəyik.

**Layihənin Əlaqələndirmə Bürosunun informasiya bülleteni Qlobal Fondun "Azərbaycanda HİV/AİDS, Vərəm və Malyariya ilə mübarizə Proqramı çərçivəsində nəşr edilir.**

**Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, Layihənin Əlaqələndirmə Bürosu**

Bakı ş., AZ1005,
T. Əliyarbəyov küçəsi 3
2-ci mərtəbə

Tel:(+99412) 4982016
4982032
Faks:(+99412) 4982001
erasulova@gfaids.az,
rvezirov@gftb.az
www.gfaids.az
www.gftb.az

**Müalicə və diagnostika təyin edilməsi ilə bağlı Respublika QİÇS-lə Mübarizə Mərkəzinə müraciət edə bilərsiniz**

Bakı ş., AZ1022,
Mir-Kasımov küçəsi 1/8

Tel:(+99412) 5100869
Faks:(+99412) 4947353
office@aids.az

Investing in our future
THE GLOBAL FUND
To Fight AIDS, Tuberculosis & Malaria

**HİV/AİDS, Vərəm və Malyariya ilə mübarizə Programı**